# Ənənəvi ifaçılıq hesabatı

***Qəbələ İncəsənət Məktəbi şagirdlərinin ənənə şəklini almış növbəti hesabat konserti mayın 16-da Qəbələ Mədəniyyət Mərkəzində keçirildi.***

Tədbiri incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev açdı. Direktor konsertə gəlmiş valideynləri, bütün tamaşaçıları salamladı, hesabat konsertində iştirak edən şagirdlərə, müəllimlərə uğurlar arzuladı.

Dahi bəstəkar Üzeyir Hacıbəyovun həmişəyaşar, ecazkar melodiyalarının müşayəti ilə Qəbələ İncəsənət Məktəbinin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirildi.

Sonra söz musiqiyə verildi. Xalq çalğı alətləri ansamblının və şagirdlərin instrumental solo ifalarında Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən parçalar, bəstəkar mahnıları səsləndirildi, gözəl rəqs nümunələri ifa olundu. İfa ounan hər bir musiqi, hər bir rəqs tamaşaçıların alqışları ilə mükafatlandırıldı.





Konsert başlayarkən valideynlərin və müəllimlərin üzündə hiss olunan həyəcan hər bir ifadan sonra sevinclə əvəz olunurdu. Konsertin sonunda şagirdlərin ifaları barədə fikir söyləmək üçün valideynlərə söz verildi. Hamı konsertin təşkilindən və ifalardan razılıqlarını bildirir, valideynlər bir-birini və şagirdlərin hazırlanmasında əməyi olan müəllimləri təbrik edirdilər.

Konsertdən sonra tamaşaçılar mədəniyyət mərkəzinin foyesində təşkil olunmuş incəsənət məktəbi şagirdlərinin rəsm əsərlərindən ibarət sərgiyə baxdılar. Sərgi tamaşaçılarda xoş təəssürat yaratdı.

✍ **Vüsal SƏMƏDOV.**

# Əmək yarmarkasına hazırlıq

***Mayın 17-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin təsdiq etdiyi qrafikə uyğun olaraq turizm və otelçilik üzrə peşə tədris mərkəzində Qəbələ Rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə "Əmək yarmarkalarının təşkili və keçirilməsinin əhəmiyyəti" mövzusunda dəyirmi masa keçirildi.***



Dəyirmi masada rayon icra hakimiyyətinin məsul işçisi Pərvin Məmmədov, kütləvi informasiya vəsitələrinin və rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak etdi.

Tədbirdə rayon məşğulluq mərkəzinin direktoru əvəzi Sahib Ağayev mövzu ətrafında çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlardan, dövlət məşğulluq siyasətinin gücləndirilməsi istiqamətində atılmış addımlardan, əldə olunmuş müsbət nəticələrdən və qarşıda duran vəzifələrdən danışdı.

Sahib Ağayev işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin təmin olunması məqsədi ilə dövlət məşğulluq orqanları tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri barədə ətraflı məlumat verdi. O, əmək yarmarkalarının təşkili və keçirilməsinin əhəmiyyətindən bəhs edərək iyunun 7-də keçirilməsi nəzərdə tutulmuş yarmarkanın mütəşəkkil olması üçün müəssisə və təşkilatları yarmarkanın işində fəal olmağa dəvət etdi.

Dəyirmi masada iştirak edən digər əlaqədar nümayəndələr də sosial tərəfdaşlığın gücləndirilməsi ilə bağlı təkliflər irəli sürdülər.

✍ **Səhrab UMUYEV, «Qəbələ»**

# Konfrans keçirildi

***Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Qəbələ Rayon Təşkilatının növbəti konfransı keçirilib. İlk öncə konfransın işçi heyəti seçilmiş, gündəlikdə duran məsələlər elan olunmuşdur. Rayon komitəsinin ötən konfransdan keçən dövr ərzində gördüyü işlərə dair komitənin sədri Malik Ağayevin hesabatı dinlənilmişdir.***

Məruzə və çıxışlarda işçilərlə bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublkasının Əmək Məcəlləsinin tələblərinə uğun olması, iş şəraitinin yaxşılaşdırılması, əmək intizamı və sair məsələlərə daha çox diqqət yetirilmişdir.



Konfrans iştirakçıları rayon komitəsinin hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndirib.

Ağayev Malik Paşa oğlu yenidən Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsinin, Nəsmiyeva Təzəgül Bayramalı qızı təftiş komiyyasının sədri seçiliblər.

Konfrans nümayəndələri Cəmilə Səttarovanın MİHİ Respublika Təşkilaitının XIII konfransına, Səttar Mehbalıyevin AHİK-in V qurultayına nümayəndə seçilmələrinə yekdillklə səs veriblər.

Bunanla da konfrans öz işini başa vurub.

✍ **Rais RƏŞİDOV, «Qəbələ»**

# Təsərrüfat xəbərləri

Qeyri-neft sektorunun inkişaf etdirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələr ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da uğurla yerinə yetirilir. Əhalinin ərzaq təhlükəsizliyinin təminatı ilə bağlı məhsullarla yanaşı ixrac yönümlü və idxal edilən məhsulların istehsalına da xüsusi diqqət yetirilir. Rayonumuz bir vaxtlar tütünçülük sahəsində qabaqcıl yerlərdən birini tuturdu. Əhalinin məşğulluğunun təminatı və rifahının yaxşılaşmasında tütünün böyük rolu vardı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ucuz populyarlıq qazanmaq eşqinə düşmüş «alimlər» tütün, pambıq və üzüm kimi çoxlu valyuta gətirən məhsulların istehsalına qarşı güclü təbliğat apardılar və istəklərinə nail oldular. Təsərrüfatın çox gəlirli bu uç sahəsi məhv edildi.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yenidən tütünçülüyün üzümçülüyün, pambıqçılığın inkişafı üçün addımlar atılsa da bu sahəni bərpa etmək xeyli vaxt və vəsait tələb edirdi.

Nəhayət son illər tütünçülüyün, üzümçülüyün və pambıqçılığın inkişaf etdirilməsi sahəsində ciddi addımlar atılır və gözəl nəticələr əldə olunur. Bu günə qədər rayonumuzda 70 hektar sahədə tütün əkilmişdir. Bu sahədə xeyli işçi qüvvəsi məşğuldur. Fermer Fikrət Məmmədov tərəfindən Çarxana kəndi yaxınlığında 60 hektar sahədə yüksək aqrotexniki qaydalara uyğun tütün əkilmişdir. Buraya qonşu Zirik, Kürd, Dizaxlı, Şamlı kəndlərindən xeyli işçi qüvvəsi cəlb olunmuşdur.

Bundan başqa Mamaylı və Ovcullu kəndlərində 8 hektar, Kiçik Əmili kəndində 2 hektar sahədə tütün əkilmişdir.

Kəndlərimizdə digər yazlıq bitkilərin əkinində də əvvəlki illərlə müqayisədə xeyli artım var. Tüntül kəndində 18 hektar sahədə qarğıdalı, 16 hektar sahədə qarabaşaq, Kiçik Əmili kəndində 30,5 hektar sahədə yonca, Yenikənd kəndində 41 hektar sahədə yonca, 74 hektarda vələmir, Topağ kəndində 10 hektarda yonca və sair əkilib.

Ümumilikdə rayonda 1692 hektar sahədə yazlıq bitkilər əkini həyata keçirilib ki, onun 526 hektarı qarğıdalı, 450 hektarı dənli və paxlalılar, 200 hektarı kartof, 104 hektarı yonca, 290 hektarı vələmir və sairdir.

Əkinlər davam edir.

**«Qəbələ».**

# 28 mindən çox kənd təsərrüfatı texnikası alınıb

*2005-2016-cı illərdə "Aqrolizinq" ASC-nin xətti ilə ümumilikdə 28082 kənd təsərrüfatı texnikası, o cümlədən 1869 taxılyığan kombayn, 94 pambıqyığan kombayn, 8636 traktor və 17483 digər texnikalar alınaraq, istehsalçılara xidmət üçün rayonlardakı aqrotexniki servis mərkəzlərinə verilib və ya lizinq yolu ilə sahibkarlara satılıb.*



*Kənd Təsərrüfatı Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, "Aqrolizinq" ASC-nin fəaliyyət göstərdiyi 12 illik dövrdə alınan kənd təsərrüfatı texnikasının 40 faizi, o cümlədən taxılyığan kombaynların 36,2 faizi, pambıqyığan kombaynların 100 faizi, traktorların 42 faizi və digər texnikaların 39 faizi 2014-2016-cı illərin payına düşüb. Bununla da son bir neçə ildə fermerlərin kənd təsərrüfatı texnikası ilə təminat məsələsi köklü şəkildə həll olunub, texnika çatışmazlığı problemi aradan qalxıb.*

*Həmçinin 2016-cı ildə gübrə və pestisidlərdən istifadənin səviyyəsi 2013-cü illə müqayisədə təqribən 2 dəfə artıb.*